# Vətən dərdidi dərdim



Əvəz Mahmud Lələdağ

Gəlmişəm səninlə dərdləşəm bir az,
Yaşı bilinməyən qoca Şahdağı.
Yanğımı söndürmür nə Kür, nə Araz,
Dağların ucası, uca Şahdağı.

Məktub alırsanmı İşıqlıdağdan,
Çeşmələr, bulaqlar öz yerindəmi.
Çoxdan gül dərmirəm Çiçəklidağdan,
Düzdər yerindəmi, düz yerindəmi.

Gecə qucağında qaldığım yerlər,
Nə qədər baxıram, gözümə dəymir.
Həsrətin tikanı bağrımı dəlir,
Yalyurdun küləyi üzümə dəymir.

Kəndimdən ayrıldım, gəldim şəhərə,
Uyuşa bilmirəm bu şəhərə mən.
Yadımdan çıxmayır o dağ, o dərə,
Min çiçək bitirən o çöl, o çəmən.

Bilirəm, susuzdu Seldərə indi,
Qoymur dinc oturam o çağlar məni.
Hələ də yal-yamac dumandı, çəndi,
Itirib axtarmır o dağlar məni.

Ağdüzdən bir xəbər, Pirdən bir xəbər,
De, necə unudum doğma kəndimi.
Xamın ayağında açılan səhər,
Qartal zirvələrdən söylə, endimi.

Südlübulaq südlüdümü, bilmirəm,
Dibəkdaşın suyu tamam quruyub.
Şükürbəyli haraylayır, gəlmirəm,
Buzovyalı yağış oyub, qar oyub.

Dikdaşın yanında o meydançada,
Məzə tutardılar coşqun cavanlar.
Nənəm su verərdi bizə dolçada,
Necə gözəl idi, Allah, o anlar.

Yumdu gözlərini əbədi yumdu,
Bizə layla deyən, oxuyan nənəm.
Urvatdan düşübdü cəhrə darağı,
Xalılar, xalçalar toxuyan nənəm.

Yadımdan çıxmayır Hacıxırmanı,
Aşıq oynayardıq, beş daş atardıq.
Hanı, gözə dəymir su dəyirmanı,
Dəyirman arxına qarmaq atardıq.

Hanı qırçın-qırçın dağ cığırları,
Salqaya hələ də çarpanaq atır.
Çaldağı məclisə sən çağır barı,
Qoşundaş hələ də xorhaxor yatır.

Dağlar mənə salam vermir, nə sirdi,
Qəm içində çabalayır yaylaq da.
Şəfapiri yad əllərdə əsirdi,
Yaş axıdır, qan ağlayır bulaq da.

Alaçığı Keçəlyalda qurardıq,
Kimə qaldı görən palıd nehrəmiz.
Dağ yeriydi, sübh tezdən durardıq,
Adı işdən yapışardıq hərəmiz.

Qaragölə ördək , qaz da gəlirmi,
Yamanlığın odu sönmür, deyəsən.
Sığırçınlar görən yazda gəlirmi,
Yaşılbaşlar geri dönmür, deyəsən.

Bazarçayın canlı idi bazarı,
Könlün nə istəsə ala bilərdin.
Kimlər saldı bu sağalmaz azarı,
Vaxtsız gəlsən, orda qala bilərdin.

Qızılqaya qızıl qandı əzəldən,
Sinəsində neçə qəbir qazılıb.
Dəyirmana gətirərdik əzəl dən,
Qapısına- ta işləmir yazılıb.

II

Təsəllimi buluddan,
Əsən yeldən alıram.
Dağların hənirini,
Köçkün eldən alıram.

Düzülüb karvan-karvan,
Düzülüb qatar-qatar,
Hara düşüb yolunuz,
Buludlar, ay buludlar.

Mən də sizə qoşulub,
O dağları aşaydım.
O kimsəsiz yurdları,
Yenidən dolaşaydım.

Qırçın-qırçın cığırla,
Çıxaydım Ağbulağa.
Bir doyunca baxaydım,
Işıqlıya, Çaldağa.
Baxaydım Elyoluna.
Baxaydım Alıçaya.
Dərdimi, azarımı,
Sıxaydım Dəliçaya.
Yenə gedib keçəydim,
Göyərçinli dərədən.
Yenə çaşır yığaydım,
Bizim Əyribərədən.
Göyuçuqdan adlayıb,
Ağyalla görüşəydim.
Mırıxda nəfəs dərib,
Çəkməliyə düşərdim.
Görəydim Çömçəbulaq,
Zümzüməylə axırmı.
Ağdüzün ağ günü tək,
Qarçiçəyi çıxırmı.
Çuxurbağa boylanıb,
Əzgənliyə enəydim,
Gurbulaqdan su içib
Ata yurda dönəydim.
Əyiləydim, öpəydim,
Hisli ocaq daşını.
Axtaraydım, tapaydım,
Köhnə oraq daşını.
Lalayurddan adlayıb,
Arxaşana aşaydım.
Salvartı yaylağına,
Şirin nəğmə qoşaydım.
Kəhər atın belində,
Buzovyala çıxaydım,
Əlimi günlük edib,
Çınqıllıya baxaydım.
Qızılboğaz yaylağı,
Yaylaqların başıdı,
Koroğlunun qılıncı,
Qılıncyalın qaşıdı.
Ərimızdə qar qalar,
Bu ildən gələn ilə.
Əyriqarın buz qarı,
Əriyər gilə-gilə.
Niyazdüşən, Kəndyeri,
Bu da Maraldərəsi,
Yalyurdda qaqqıldaşır,
Gözəl kəklik fərəsi.
Balabəyçuxurundan,
Kankanı soruşaydım.
Çıxıb Qoruqdüzünə,
Güllərə qarışaydım.
Bu da Pəriçınqılı,
O da Muradtəpəsi.
Bu da Xanlartaxtası,
O da Qafandərəsi,
Heyif Qısxanclıçuxur,
Qarnıyarıq, Topağac,
Gündüzü cənnət idi,
Aylı gecəsi merac.
Qaragüney, Suluyer,
Aşağı Ortacada,
Qaraqumsal, Daşdibi,
Qismət oldu xor yada,
Dostalı dərəsi də.
Yaddan çıxmaz heç zaman
Sackahası, Dəlikdaş.
Palantökən, İtuçan,
Məmmədalı gölündən,
Qızıl balıq tutaydım.
Ağtəpənin döşündə,
Bir gur ocaq çataydım.
Arpa, Buğda təpəsi,
Hər təpədən ucadır.
Vallah Asvar kahası,
Qocalardan qocadı.
Beşgünlükdə beşcə gün,
Dəryazla ot çalaydım.
Maldaşdan, Mirəhmədə,
Hamar cığır salaydım.
Qarçınqıl, Çiçəkli,
Dərə quzey, dağ güney.
Indi qəribsəyibdi,
Daşlıkaha, Ağgüney.
Gödəkdərədən keçib,
Beşbulağa çataydım,
Yanğımı sərinlədib,
Sudaşında yataydım.
Surçaqdaşda sürüşüb,
Şırranda bənd alaydım.
Yol üstü Ağqayadan,
Bir kəllə qənd alaydım.
Tərxannovu, Sarıyer,
Sizdən əlim üzülüb.
Dərd-kədər muncuq kimi,
Sinəm üstə düzülüb.
Darıxırmı görəsən,
Yastıtəpə, Yastıyal.
El yolu gözləyirəm
Qoruqyalın dostu yal
Ay Çobanəlləməsi,
Dünya yaman dağıldı.
Ötüb keçən çağlarım,
Elə bil ki nağıldı.
Görən Hasar məhləsi,
Məhlə kimi qalırmı.
Payızı qarşılayıb,
Qışı yola salırmı.
Yellicə, Zoğallıbağ
Taleyin hökmunə bax.
Qərib -qərib çağlayır,
Əlmərdan, Arzubulaq.
Qoşadaş, Qoşakaha,
Necə dözür bu aha.
Məni eldən edəni,
Tapşırmışam Allaha.
Zorzorun zor suyundan,
Çırmanaydım, keçəydim.
Qalxaydım Hacalıya,
Qar suyundan içəydim.
Üçtəpə, dağım təpə,
Yaşıl yaylağım təpə.
Bir sağalmaz dağ olub
Sənsizlik çağım təpə.
Göbəkdaş xanım daşım,
Bəlalar çəkdi başım.
Səndən ayrı düşəli,
Selə dönüb göz yaşım.
Yantəpə, Yanıqtəpə,
Ürəyi sınıq təpə.
Görən indi necədi,
Qanqallı, Qoruqtəpə
Qızılqaya, Salqaya
Çopurqaya, Balqaya
Xeyli vaxtdır alıblar,
Qoşundaşı halqaya.
Səmədölən, Gendərə,
Çatmır sənə ün, dərə
Buzdağa yolum düşə,
Yanğımı buz söndürə.
Düzdərə bax, Düzdərə
Orda saydım yüzdərə
Bu yaz Novruzgülünü,
Bizim gəlin, qız dərə.
Suquyusu suludur,
Ağzınacan doludur.
Mən yolumdan dönmərəm,
Yolum haqqın yoludur.
Bizdən imdad istəyir,
Xocalının harayı.
Vaqifin məqbərəsi,
Xan qızının sarayı.
Bizdən imdad istəyir,
Malikəjdər türbəsi.
Hikkəsindən daş oyan,
Bərgüşadın gur səsi.
Bizdən imdad istəyir,
Ağdamın imarəti.
Sözümün sərkərdəsi,
Fizulinin sənəti.
Bizdən imdad istəyir,
Murovdağın vüqarı.
Cəbrayılın hicranı ,
Zəngilanın qübarı.
Bizdən imdad istəyir,
Səngərli Səngərdağı,
Bir gözü qan ağlayan,
Azərbaycan torpağı.
Sazından ayrı düşüb,
Sazlı, sözlü Göyçəmiz.
Qaytaraq Ağababanı,
Qaytaraq Göyçəni biz.
Gözləri yolda qalıb,
Vedinin yanı dağlar.
Elimizin dayağı,
Ürəyi, canı dağlar.
Doğma Zəngəzurumda
Silinməz izim qalıb.

Qibləm İşıqlıdağdı
Səcdəgahım o torpaq.

## *Üzü dağlara, dağlara*

Otuz ildi yatammıram,
Üzü dağlara-dağlara.
Deyəmmirəm dilimdəki,
Sözü dağlara, dağlara.

Bu dərdimi heç kəs bilmir,
Dəli könlüm deyib, gülmür.
Qıtlaşıbdı, daha gəlmir,
Yüzü dağlara, dağlara.

Əhdim budur, yol açıla,
Bağlanmış əl-qol açıla.
Haraylaya Qumluçala,
Bizi dağlara, dağlara.

Bülbüllər verə səs-səsə,
Lələdağ gələ həvəsə.
Çoban Xudum durub kəsə,
Quzu, dağlara, dağlara.

2019